# RƏQƏMSAL İQTİSADİYYATIN HÜQUQİ TƏNZİMİNİN MÜASİR TENDENSİYALARI

DOİ: https://doi.org/10.71447/2413-7235-2025-1-47

**Emin C. Əmrahov**
*Azərbaycan Respublikası*
*İqtisadiyyat Nazirliyinin*
*İqtisadi Elmi Tədqiqat İnstitutu,*
*Böyük elmi işçi*
*E-mail:* emin.amrahov@esri.gov.az
***ORCİD:*** *0009-0006-4080-534X*

**Xülasə:**
Məqalədə müasir iqtisadi inkişafın prioritet istiqamətlərindən biri kimi çıxış edən rəqəmsallaşma proseslərinin hüquqi əsasları və tənzimlənmə mexanizmləri hərtərəfli təhlil edilir. Rəqəmsallaşma yalnız iqtisadi fəaliyyətin texnoloji yenilənməsi deyil, həm də idarəetmə münasibətlərinin, hüquqi normaların və sosial institutların yeni prinsiplər üzərində formalaşmasını tələb edən çoxşaxəli proses kimi qiymətləndirilir. Rəqəmsal iqtisadiyyatın formalaşması nəticəsində elektron hökumət, rəqəmsal ticarət, süni intellekt və böyük verilənlər (big data) kimi anlayışlar iqtisadi dövriyyənin və hüquqi münasibətlərin ayrılmaz hissəsinə çevrilir.
Müəllif qeyd edir ki, rəqəmsal transformasiya prosesləri sürətlə inkişaf etsə də, onların hüquqi tənzimlənməsi Azərbaycanın qanunvericilik sistemində hələ də ilkin mərhələdədir. Qüvvədə olan normativ-hüquqi aktlar əsasən fraqmentar xarakter daşıyır və rəqəmsallaşmanın kompleks şəkildə idarə edilməsini tam təmin etmir. Bu sahədə sistemli və elmi əsaslandırılmış hüquqi konsepsiyaların hazırlanması, beynəlxalq təcrübənin öyrənilərək milli qanunvericiliyə inteqrasiyası vacib məsələlər kimi önə çıxır.
Məqalədə həmçinin vurğulanır ki, süni intellekt, kibertəhlükəsizlik, rəqəmsal aktivlərin hüquqi dövriyyəsi və məlumatların qorunması kimi istiqamətlər üzrə dəqiq hüquqi normaların olmaması rəqəmsal iqtisadiyyatın inkişafını məhdudlaşdırır. Bununla belə, mövcud hüquqi baza gələcək islahatlar üçün mühüm platforma yaradır. Yaxın illərdə bu istiqamətdə vahid hüquqi siyasətin formalaşdırılması, rəqəmsal hüququn ayrıca institut kimi inkişaf etdirilməsi və normativ-hüquqi sistemin beynəlxalq standartlara uyğunlaşdırılması zəruridir.
***Açar sözlər:*** *rəqəmsal iqtisadiyyat; rəqəmsallaşma; süni intellekt; hüquqi tənzimlənmə; hüquqi baza; hüquqi norma.*

# MODERN TRENDS IN LEGAL REGULATION OF THE DIGITAL ECONOMY

**Emin J. Amrahov**
*Economic Scientific Research Institute*
*of the Ministry of Economy*
*of the Republic of Azerbaijan*
*E-mail:* emin.amrahov@esri.gov.az
***ORCİD:*** *0009-0006-4080-534X*

**Abstract:**
The article comprehensively analyzes the legal foundations and regulatory mechanisms of digitalization processes, which are among the priority directions of modern economic development. Digitalization is evaluated not merely as a technological renewal of economic activity, but as a multifaceted process that requires the formation of management relations, legal norms, and social institutions on new principles. As a result of the formation of the digital economy, such concepts as e-government, digital trade, artificial intelligence, and big data have become integral parts of economic circulation and legal relations.
The author notes that although digital transformation processes are developing rapidly, their legal regulation in Azerbaijan's legislative system remains at an early stage. The existing normative-legal acts are mainly fragmentary in nature and do not fully ensure the comprehensive management of digitalization. Therefore, the preparation of systematic and scientifically grounded legal concepts, as well as the integration of international experience into national legislation, emerge as important tasks.
The article also emphasizes that the lack of precise legal norms in areas such as artificial intelligence, cybersecurity, the legal circulation of digital assets, and data protection limits the development of the digital economy. Nevertheless, the existing legal framework provides an important platform for future reforms. In the coming years, it is necessary to form a unified legal policy in this field, develop digital law as an independent institution, and harmonize the normative-legal system with international standards.
***Keywords:*** *digital economy; digitalization; artificial intelligence; legal regulation; legal framework; legal norm.*

# СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ЦИФРОВОЙ ЭКОНОМИКИ

**Эмин Дж. Амрахов**
*Экономический научно-исследовательский институт Министерства экономики Азербайджанской Республики.*
*Старший научный сотрудник*
*E-mail:* emin.amrahov@esri.gov.az
***ORCİD:*** *0009-0006-4080-534X*

**Аннотация:**
В статье всесторонне анализируются правовые основы и механизмы регулирования процессов цифровизации, которые выступают одним из приоритетных направлений современного экономического развития. Цифровизация рассматривается не только как технологическое обновление экономической деятельности, но и как многоаспектный процесс, требующий формирования управленческих отношений, правовых норм и социальных институтов на новых принципах. В результате формирования цифровой экономики такие понятия, как электронное правительство, цифровая торговля, искусственный интеллект и большие данные, становятся неотъемлемой частью экономического оборота и правовых отношений.
Автор отмечает, что, несмотря на стремительное развитие процессов цифровой трансформации, их правовое регулирование в законодательной системе Азербайджана всё ещё находится на начальной стадии. Действующие нормативно-правовые акты носят фрагментарный характер и не обеспечивают комплексное управление цифровизацией. В этой связи важное значение приобретает

разработка системных и научно обоснованных правовых концепций, а также интеграция международного опыта в национальное законодательство.
В статье также подчёркивается, что отсутствие чётких правовых норм в таких областях, как искусственный интеллект, кибербезопасность, правовой оборот цифровых активов и защита данных, ограничивает развитие цифровой экономики. Тем не менее существующая правовая база создаёт важную платформу для будущих реформ. В ближайшие годы необходимо сформировать единую правовую политику в этой сфере, развивать цифровое право как самостоятельный институт и привести нормативно-правовую систему в соответствие с международными стандартами.
***Ключевые слова:*** *цифровая экономика; цифровизация; искусственный интеллект; правовое регулирование; правовая база; правовая норма.*

## GİRİŞ

"Rəqəmsal iqtisadiyyat" anlayışı nisbətən yeni və son dərəcə vacib bir fenomendir. Son on ildə rəqəmsal texnologiyalar, o cümlədən internet iqtisadi fəaliyyətin və iqtisadiyyatın bütün sektorlarında inkişafın əsas amilə çevrilib. İqtisadiyyatın effektiv işləməsi rəqəmsal mühitdən asılı vəziyyətdədir. Eyni zamanda, rəqəmsal məkana xas olan qeyri-müəyyənliklərin sayı getdikcə daha çox nəzərə çarpır. Rəqəmsal təhdidlər daha geniş miqyas aldı və bu, çox vaxt əhəmiyyətli maliyyə, reputasiya və vaxt itkilərinə səbəb olur. Dünya İqtisadi Forumunun qlobal risklərə dair hesabatında (The Global Risks Report, 2018) kibercinayətkarlıq və məlumat oğurluğu kimi qlobal təhlükələr əhəmiyyətinə görə üçüncü və dördüncü yerləri tutur (The Global Risks Report, 2018). Rəqəmsal texnologiyalarla bağlı çağırışlar bu və ya digər dərəcədə sosial-iqtisadi problemləri həll etməyə və rəqəmsal məkanda təhlükəsizlik strategiyaları hazırlamaq və həyata keçirməklə rəqəmsallaşma risklərini azaltmağa çalışan əksər dövlətlərin inkişaf planlarında qeyd olunur.

1990-cı illərdə iqtisadiyyatda baş verən keyfiyyət dəyişiklikləri hələ də rəqəmsal iqtisadiyyatın əsasını təşkil edən internetin yaranması və inkişafı ilə bağlı olmuşdur. Lakin 2000-2010-cu illərdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı iqtisadi sistemdə dəyişikliklər üçün yeni ilkin şərtlər yaratdı. Bu proses getdikcə artan sayda cihazlara rəqəmsal sensorların tətbiqi ("Əşyaların İnterneti"), yeni fərdi cihazların (mobil telefonlar, smartfonlar, planşetlər, netbuklar, noutbuklar, 3D çap cihazları) yaradılması, rəqəmsal modellər (bulud məlumatların emalı, rəqəmsal platformalar, rəqəmsal xidmətlər), böyük verilənlər (big data) texnologiyasından istifadə edərək məlumat massivlərindən istifadənin artan intensivliyi, məlumatların təhlili və qərar qəbul etmə alqoritmlərinin yeni üsulları, yeni avtomatlaşdırma və robotlaşdırma texnologiyaları ilə müşayiət olunur (OECD Digital Economy Outlook, 2015)

Bu gün rabitə və informasiyanın yayılması sahəsində genişmiqyaslı dəyişikliklər baş verir. Həyatın bütün sahələri müəyyən dərəcədə rəqəmsal texnologiyalarla bağlıdır. Əksər ölkələr öz inkişafında siyasət, iqtisadiyyat, mədəniyyət, sosial proseslər və digər sahələrdə rəqəmsallaşma ehtiyacı ilə üzləşirlər.

İqtisadiyyatın rəqəmsallaşması bütün sənaye sahələrini və əhalinin təbəqələrini əhatə edən qlobal prosesdir. Rəqəmsal iqtisadiyyat əmək məhsuldarlığının artmasına, əhalinin rifahının yüksəlməsinə, İT texnologiyalarının sürətli inkişafına və nəticədə iqtisadi rifaha töhfə verir.

Eyni zamanda, "yeni rəqəmsal texnologiyaların yaranması yeni növ münasibətlərin (informasiya hüquq münasibətlərinin obyektləri və subyektləri, konkret hüquqlar, vəzifələr və məsuliyyətlər) inkişafı üçün əlverişli rejim təmin edəcək hüquqi mexanizmlərin formalaşdırılması zərurətini doğurur və istifadəçilərin rəqəmsal məlumatlarının təhlükəsizliyi, informasiya təhlükəsizliyinin təmin edilməsi, vətəndaşların əqli mülkiyyət hüquqlarının və məxfiliyinin qorunması, kompüter cinayəti, (bulud) məlumat anbarlarının düzgün işləməsi ilə bağlı təhlükələr kimi problemlərin həllinə töhfə verir" (Gruber, H., 2017).

Rəqəmsal iqtisadiyyat tamamilə yeni, əvvəllər naməlum sosial münasibətlərin yarandığı, etibarlı şəkildə rəqəmsal adlandırıla bilən yeni hüquq paradiqmasında hüquqi tənzimləmə tələb edən reallığa çevrilir.

### Rəqəmsal iqtisadiyyatın hüquqi tənzimi ilə bağlı müasir tendensiyalar və çağırışlar

Cəmiyyət indiki mərhələdə, xüsusilə yüksək texnologiyalar sahəsində, sürətlə inkişaf edir. Nəticədə iqtisadi sahədə sosial münasibətlər mürəkkəbləşir. Əsas problem bu sahədə münasibətlərin inkişafına və tənzimlənməsinə yönəlmiş bir sıra normativ hüquqi aktların mövcud olmasına baxmayaraq, rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsinin mükəmməl olmamasıdır.

Hər kəs bu sadə həqiqəti təsdiq edir ki, süni intellekt insanların həyat səviyyəsini daha da yaxşılaşdırır, onların asudə vaxtlarını və deməli, istirahət imkanlarını, bütövlükdə azadlığını genişləndirir, öz zamanından daha səmərəli istifadə etmələri üçün əlverişli şərait yaradır və s. Lakin eyni zamanda bizim bir çox hüquqlarımızı məhdudlaşdırır və sosial münasibətlər sahəsində bir çox fəsadlarla müşayiət olunur.

Ona görə də texnoloji inkişafla insan hüquqlarının təminatı arasında düzgün və optimal balansın müəyyən edilməsi son dərəcə aktual əhəmiyyət kəsb edən məsələdir. Burada son nəticədə hüquqi tənzimetmənin rolu həlledici olacaqdır. Hüquq ictimai maraqları qoruyur. Süni intellekt əsaslı texnologiyaların inkişafı müəyyən qədər ictimai maraqlara xidmət etsə də, daha çox fərdi biznes maraqlarının prioritetinə əsaslanır. Fərdi biznes maraqlarının ictimai maraqları dəfələrlə üstələməsi artıq bir sıra sosial problemlərə yol açır və məhz, bu zaman hüquqi tənzimetmə vasitəsilə optimal balans yaradılması labüd və aktual məsələyə çevrilir. Bu məsələnin uğurlu həllində dövlət hakimiyyəti orqanları, özəl sektor və beynəlxalq təşkilatların səmərəli əməkdaşlığı, biznes və insan hüquqlarının qarşılıqlı nisbəti ilə bağlı nüfuzlu beynəlxalq təşkilatların tövsiyələri də mühüm rol oynaya bilər. Süni intellekti texnologiya şirkətləri (hüquqi şəxslər) tətbiq edir. Həmin şirkətlər isə hüquqi şəxs kimi müəyyən bir dövlətin yurisdiksiyasına, hüququna tabedir. Dövlət süni intellektin tətbiqi ilə məşğul olan şirkətlərin insan hüquqları sahəsində standartlara əməl etməsinə nəzarət sahəsində malik olduğu səlahiyyətlərindən səmərəli surətdə istifadə etməlidir. (Aslanov Z.N., 2021)

Rəqəmsal iqtisadiyyatın ən çətin problemlərindən biri yeni tələblərə tabe olan effektiv, çevik hüquqi tənzimləmə problemidir. Məhz qanun iqtisadiyyatın yeni rəqəmsal şəraitə keçidini təmin edə biləcək alətdir. İqtisadiyyatın rəqəmsallaşdırılmasının hüquqi tənzimlənməsinin əsas vəzifəsi təkcə müasir texnologiyaların yaranmasını və inkişafını təmin etmək deyil, həm də onların rəqəmsal iqtisadiyyatda istifadəsi ilə bağlı fəaliyyətlərin həyata keçirilməsi üçün əlverişli hüquqi rejim təmin edən tənzimləyici mühitin yaradılmasıdır. Eyni zamanda nəzərə almaq lazımdır ki, hüquq, məzmununu təkmilləşdirərək, rəqəmsallaşma obyektinə çevrilir. Yeni reallıqda hüquq təkcə iqtisadiyyatın, idarəetmənin və sosial həyatın digər seqmentlərinin rəqəmsallaşdırılmasını təmin edən bir vasitə, alət deyil, həm də rəqəmsallaşmanın təsir obyektinə çevrilir və bunun nəticəsində forması, məzmunu, sistemi, strukturu, fəaliyyət mexanizmi dəyişikliklərə məruz qalır və yaranan transformasiyaların güclənməsinə meyl nümayiş etdirir. (Хабриева Т.Я., Черногор Н.Н., 2018)

Rəqəmsallaşmanın iqtisadi və digər fəaliyyətlərin müxtəlif sahələrinə təsir etdiyini nəzərə alaraq, rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsi qanunvericiliyin demək olar ki, bütün sahələrinin yenilənməsi, təkmilləşdirilməsi və inkişafı üçün katalizatora çevrilir.

Rəqəmsal iqtisadiyyatın inkişafı təkcə formalaşan rəqəmsal hüquqi münasibətlərə uyğun olaraq yeni qaydaların qəbulu ilə deyil, həm də mövcud qanunvericiliyin təkmilləşdirilməsi ilə müşayiət olunur.

Hüquq hələ yaranan yeni sosial münasibətləri tam nəzərə almır ki, bu da rəqəmsallaşma proseslərinin hüquqa təsirini əsaslandıran elmi araşdırmaların kifayət qədər olmaması ilə əlaqədardır. Elmi araşdırmalar həmçinin qeyd edir ki, rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsi praktikanın tələblərindən geri qalır və rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsinə yeni yanaşmalara ehtiyac var.

Rəqəmsal iqtisadiyyatın inkişafının mühüm aspekti hüquqi tənzimləmə prinsipləri sisteminin formalaşdırılmasıdır. Rəqəmsal iqtisadiyyatın hüquqi münasibətlərinin müxtəlifliyi, sosial münasibətlərin bu sahəsinin yeniliyini və spesifikliyini nəzərə almaq zərurəti eyni vaxtda ictimai maraqları təmin etmək üçün nəzərdə tutulmuş və iqtisadiyyatın müxtəlif sahələrində şəxsi maraqların inkişafına kömək edən çoxsəviyyəli hüquqi tənzimləmə prinsipləri sisteminin işlənib hazırlanması və əsaslandırılması ehtiyacını müəyyən edir (И. П. Манкевич, 2021).

Hazırda tədqiqatçıların diqqəti əsasən rəqəmsal iqtisadiyyatın müəyyən hüquqi aspektlərinə yönəlib: rəqəmsal iqtisadi münasibətlərin iştirakçılarının hüquqi statusu; məlumatların əlçatanlığı; rəqəmsal mülkiyyətin hüquqi statusu; rəqəmsal işarələrin (tokenlərin) hüquqi mahiyyətinin müəyyən edilməsi; informasiya texnologiyalarının inkişafı kontekstində müəllif hüquqlarının qorunması; elektron hökumətin formalaşmasının hüquqi aspektləri; informasiya təhlükəsizliyi məsələləri; fərdi məlumatların mühafizəsi; müəyyən sənaye sahələrinin rəqəmsallaşdırılması və s.

Hüquq elmi rəqəmsal münasibətlərin tənzimlənməsi sahəsində hüquqi norma və prinsipləri sistemləşdirmək üçün yanaşmalar axtarır. Məsələn, rəqəmsal iqtisadiyyatın formalaşması prinsipləri arasında: "vətəndaşlara məlum olan mal və xidmətlərin qəbulunun qeyri-rəqəmsal formalarının qorunması prinsipi; islahatların ənənəvi mənəvi-əxlaqi dəyərlərə uyğunluğu, onların aliliyi və prioriteti prinsipi". A.İ.Ovçinnikovun qeyd etdiyi kimi, "ictimai həyatın rəqəmsallaşdırılmasında riskləri minimuma endirmək üçün zəruri olan siyasi, mədəni, dini və digər sahələrdə vətəndaşların şəxsi həyat və azadlıqlarının təmin edilməsi üçün son dərəcə vacib olan bu prinsip, informasiya-kommunikasiya texnologiyalarından istifadə zamanı davranış qaydalarını müəyyən edir" (А. И. Овчинников, 2018).

"Rusiya Federasiyası Hökuməti yanında Qanunvericilik və Müqayisəli Hüquq İnstitutu" Federal Dövlət Elmi Tədqiqat İnstitutunun alimlərinin rəqəmsal iqtisadiyyata hüquqi dəstək prinsiplərini əsaslandıran "Rəqəmsal iqtisadiyyatın inkişafı ilə əlaqədar yaranan münasibətlərin hərtərəfli tənzimlənməsi (hüquqi tənzimlənməsi) konsepsiyası" adlı elmi araşdırması maraq doğurur. Onlar rəqəmsal iqtisadiyyatın hüquqi təmininin fundamental prinsiplərinə aşağıdakıları aid edirlər: "qanunilik; rəqəmsal iqtisadiyyatda hüquqi tənzimləmənin aydınlığı və dəqiqliyi; strateji istiqamətlənmə; rəqəmsal iqtisadiyyat sahəsində qanunvericiliyin sabitliyi və davamlılığı; proqnozlaşdırılan normativ hüquqi qərarların onların icrası üçün müvafiq tədbirlərlə, habelə onların yerinə yetirilməməsinə görə məsuliyyət tədbirləri ilə təmin edilməsi; dövlət idarəçiliyinin müxtəlif sahələrində informasiya texnologiyalarından istifadə prosedurunun dəqiqliyi; informasiya sistemlərinin və informasiya texnologiyalarının qarşılıqlı uyğunluğunun təmin edilməsi; vətəndaşların hüquq və qanuni mənafeləri ilə dövlət idarəçiliyi və təşkilatların maraqları arasında tarazlığın təmin edilməsi; rəqəmsal mühitin imkanlarından və ənənəvi modellərdən və qarşılıqlı təsir mexanizmindən istifadə edərkən tarazlığın qorunması; dövlətin suverenliyinin və milli təhlükəsizliyinin təmin edilməsi prioritetinin müəyyən edilməsi; bütün vətəndaşlar üçün bərabər şəraitin təmin edilməsi; yeni texnologiyaların tətbiqinə qədər mövcud olanlarla müqayisədə insan hüquq və azadlıqlarının məhrum edilməsinə və ya azaldılmasına qadağa; texnologiyaya çıxışı olmayanlar üçün ayrı-seçkiliyə yol verilməməsi prinsipi; mülkiyyət toxunulmazlığı; müqavilə azadlığı; mülki hüquq münasibətlərinin yaranması üçün əsasların açıq siyahısı" (Институт Законодательства и Сравнительного Правоведения при Правительстве Российской Федерации, 2020).

Müasir mərhələdə rəqəmsal iqtisadiyyatın inkişafı bütün inkişaf etmiş ölkələrdə strateji prioritetdir. Avstraliya, Böyük Britaniya, Almaniya, Danimarka, Çin, Fransa, Yaponiya və s. ölkələrdə milli rəqəmsallaşma proqramları qəbul edilmiş və həyata keçirilməkdədir. Proqram sənədlərinin perspektiv istiqamətləri kimi aşağıdakı sahələr müəyyən edilmişdir: telekommunikasiya və rəqəmsal infrastrukturun inkişafı; rəqəmsal xidmətlərə çıxışın genişləndirilməsi; elektron hökumətin mövqeyinin gücləndirilməsi, dövlət məlumatlarına açıq çıxış; etimadın təmin edilməsi (rəqəmsal fərdi identifikasiya, şəxsi məlumatların qorunması, məxfilik və təhlükəsizlik); əmək bazarının dəyişdirilməsi, müxtəlif sahələrdə, ilk növbədə xidmət sektorunda rəqəmsallaşmanın tətbiqinin təşviq edilməsi: səhiyyə, təhsil, nəqliyyat; əhalinin rəqəmsal bacarıqlarının inkişafı və s. (Т. В. Моисеева, 2020).

Milli qanunvericiliyin təkmilləşdirilməsi, inkişafı və rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsi prinsiplərinin formalaşdırılmasının strateji istiqaməti bu sahədə qabaqcıl xarici təcrübənin öyrənilməsi və təhlili olmalıdır. Xarici təcrübənin öyrənilməsinin aktuallığı və onun Azərbaycanda tətbiqi mümkünlüyü rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsinin optimallaşdırılmasına dair qanunauyğunluqların, konkret yanaşmaların müəyyənləşdirilməsi və onun effektivliyinin qiymətləndirilməsi zərurətindən irəli gəlir. Xarici ölkələrin qanunvericiliyinin təhlili rəqəmsal iqtisadiyyatın inkişafı üçün problemləri, münaqişələri, tendensiyaları və perspektivləri müəyyən etməyə imkan verir.

Beləliklə, yuxarıda qeyd olunanları nəzərə alaraq hesab edirik ki, iqtisadi münasibətlərin rəqəmsal transformasiyasının xüsusiyyətlərinə diqqət yetirməklə rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsi prinsipləri qanunda mövcud olan hüquqi tənzimləmə prinsiplərini tamamlamalıdır.

## NƏTİCƏ

Hazırda rəqəmsal iqtisadiyyatın tənzimlənməsinin hüquqi əsaslarının gələcək inkişaf istiqamətlərini birmənalı şəkildə müəyyən etmək kifayət qədər çətindir. Rəqəmsal iqtisadiyyat sahəsində ictimai münasibətlərin hüquqi tənzimlənməsinin özəlliyi və mürəkkəbliyi ondan ibarətdir ki, onun əsasını bir tərəfdən hamılıqla tanınan elementlər (obyektlər, subyektlər), digər tərəfdən isə yeni, insan iştirakını istisna edən ictimai münasibətlərin əvvəllər məlum olmayan elementləri meydana çıxır.

İqtisadiyyatın bütün sahələrinə təsir edən rəqəmsallaşma prosesləri qeyri-bərabər həyata keçirilir ki, bu da qanunvericiliyin hazırlanmasında və sistemləşdirilməsində çətinliklər yaradır. Rəqəmsal iqtisadiyyat sahəsində münasibətlərin tənzimlənməsi üçün hüquqi bazanın gələcəkdə formalaşdırılması ya mövcud qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə həyata keçirilə bilər (mövcud normativ hüquqi aktlara məqsədyönlü dəyişikliklərin və əlavələrin, fundamental normativ hüquqi aktlarına - Mülki Məcəlləyə, Əmək Məcəlləsinə və s.- sistemli dəyişikliklərin edilməsi), və ya rəqəmsal iqtisadiyyat sahəsində ayrıca qanunvericilik qəbul etməklə. Nəzərə almaq lazımdır ki, qanunvericiliyin ixtisaslaşması hüquqi ziddiyyətlərin və toqquşmaların yaranmasına gətirib çıxara bilər.

Rəqəmsal iqtisadiyyatın inkişafı üçün zəruri olan prioritet hüquqi tədbirlərə aşağıdakıları aid etmək olar:

- rəqəmsal iqtisadiyyatın tənzimlənməsi üçün hüquqi bazanın formalaşdırılması üzrə konseptual təkliflərin hazırlanması;
- rəqəmsallaşma proseslərini təmin edən təməl hüquqi anlayışların və institutların qanunvericiliklə təsbiti;
- rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsinin sektoral prinsiplərinin müəyyən edilməsi;
- rəqəmsal iqtisadiyyatın inkişafı ilə əlaqədar yaranan hüquqi ziddiyyətlərin aradan qaldırılması;
- nəzərdən keçirilən sahədə milli qanunvericilik normalarının beynəlxalq müqavilələrin normalarına uyğunlaşdırılması.

Rəqəmsal iqtisadiyyatın inkişafı əvvəllər məlum olmayan risk və təhdidlərin yaranmasına səbəb olur, buna görə də rəqəmsal iqtisadiyyatın tənzimlənməsi üçün hüquqi bazanın inkişafı üçün əsas meyar kimi prinsiplər çıxış etməlidir. Rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsi prinsipləri sisteminin formalaşdırılması prosesinin ictimai münasibətlərin bu sahəsinə münasibətdə ümumi hüquqi, sektorlararası prinsipləri dəqiqləşdirməklə, o cümlədən rəqəmsal iqtisadiyyatın xüsusiyyətlərini nəzərə alan və əks etdirən yeni prinsipləri əsaslandırmaq yolu ilə həyata keçirilməsi məqsədəuyğundur.

## ƏDƏBİYYAT SİYAHISI

1. Aslanov Z.N., Elmi-texniki tərəqqi, süni İntellekt və hüquq / Bakı: Elm və təhsil, - 2021. - 165 s.
2. Концепция комплексного регулирования (правового регулирования) отношений, возникающих в связи с развитием цифровой экономики. «Институт Законодательства и Сравнительного Правоведения при Правительстве Российской Федерации» Москва 2020. / [Электронный ресурс] URL:https://www.economy.gov.ru/material/directions/gosudarstvennoe_upravlenie/normativnoe_regulirovanie_cifrovoy_sredy/
3. Костикова Г.В. Цифровые права как новые объекты гражданских прав // Техника и безопасность объектов уголовно-исполнительной системы: Сб. мат-лов Межд. науч.практ. конф. 2018. С. 346–349.
4. Манкевич, И. П. К вопросу правового регулирования цифровой экономики / И. П. Манкевич // Третьи цивилистические чтения памяти профессора М. Г. Прониной : сб. ст. / Акад. упр. при Президенте Респ. Беларусь ; под ред. Н. Л. Бондаренко [и др.]. – Минск : Акад. упр. при Президенте Респ. Беларусь, 2021. С. 163.
5. Моисеева, Т. В. Особенности правового регулирования отношений в области цифровой экономики в странах Евразийского экономического союза / Т. В. Моисеева // Вестник Волжского университета имени В. Н. Татищева. – № 1. – Т. 2. – 2020. – С. 187–188.
6. Овчинников, А. И. Право и цифровая экономика: основные направления взаимодействия / А. И. Овчинников // Философия права. – 2018. – № 3 (86). – С. 128–134.
7. Хабриева Т.Я., Черногор Н.Н. Право в условиях цифровой реальности // Журнал российского права. 2018. № 1(253). С. 85–102.
8. Gruber, H. (2017). Innovation, skills and investment: A digital industrial policy for Europe. Journal of Industrial and Business Economics, 44(3), P. 327–342.
9. OECD Digital Economy Outlook 2015, Paris. / [Electronic resource] / URL: http://www.oecd.org/sti/oecd- digital-economy-outlook-2015-9789264232440-en.htm
10. The Global Risks Report 2018 13th Edition: [Electronic resource] / URL: https://www3.weforum.org/docs/WEF_GRR18_Report.pdf